

**RİZVAN VAHABOV,**
«Azərnefttəchizat» birliyinin baş direktoru

# HEYDƏR ƏLİYEVİN ŞƏXSİYYƏTİ AZƏRBAYCANIN ƏN QİYMƏTLİ MİLLİ SƏRVƏTİDİR

Bəşər tarixində silinməz izlər buraxmış şəxsiyyətlər xalqlarının və dövlətlərinin taleyində müstəsna rol oynamış ölkə başçıları olmuşdur. Hər bir xalq o zaman əzəmətli olur ki, o dahi şəxsiyyətlər, qüdrətli dövlət xadimləri yetişdirmək qüdrətinə malik olur. Xalqımızın əsrlər boyu yetişdirdiyi tarixi şəxsiyyətlərdən birinin müasiri olmaq, onunla eyni dövrdə yaşamaq səadəti bizim nəslimizə nəsib olmuşdur. Azərbaycanın son 40 ilə yaxın tarixi dövrü böyük şəxsiyyət, fenomenal insan, qüdrətli dövlət başçısı, mahir siyasətçi Heydər Əliyevin adı ilə, onun cahanşümul fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, ölkəmizin və xalqımızın tarixinin həlledici anlarında onun gördüyü böyük işləri dərk etmək üçün 60-cı illərdən başlayan yola nəzər salmaq zəruridir.

Azərəbaycanın XX əsr dirçəlişinin təməl daşı məhz Heydər Əliyev tərəfindən qoyulmuş, ölkəmiz və millətimiz onun rəhbərliyi altında böyük inkişaf yolu keçmişdir.

XVIII əsrin sonları və XIX əsrin əvvəllərindən etibarən Azərbaycan öz coğrafi mövqeyi və təbii sərvətləri ilə bir çox iri dövlətlərin siyasi və iqtisadi maraqları dairəsində olmuş və nəticədə parçalanmış, ayrı-ayrı dövlətlərin tərkibində yaşamaq zərurətində qalmışdır. Görkəmli şairimiz Məhəmməd Hadi «Millətimin imzası yox millətlər içində» misrası ilə Azərbaycanın belə vəziyyətdə olmasını çox sərrast ifadə etmişdir. Tarixi ərazimizin bir hissəsi olan indiki müstəqil Azərbaycanımız çar Rusiyası imperiyasının tərkibində uzun illər müstəmləkə buxovları altında olmuş, yalnız 1918-1920-ci illərdə gərgin mübarizə nəticəsində cəmi 23 ay müstəqil dövlət kimi yaşamaq imkanı əldə etmişdir. Sonradan keçmiş SSRİ-nin tərkibində Sovet Respublikasına çevrilmək məcburiyyətində qalmışdır. Bu dövrdə acı həqiqətdir ki, «qırmızı terror»dan başlamış ağır represiyalara kimi proseslər Azərbaycan üçün daha ağrılı keçmiş və milli liderin olmaması hər zaman hiss olunmuşdur. Dünya tarixinə çoxlu mədəniyyət, elm xadimləri, hərbçilər bəxş etmiş Azərbaycanda XX əsrdə qüdrətli dövlət xadiminin meydana çıxmasına böyük tələbat yaranmışdı.

Yalnız Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonra Azərbaycana münasibətin dəyişməsi prosesinə başlanmışdır.



Heydər Əliyev özünün bütün həyatını, ömrünü xalqımızın tərəqqisinə, ölkəmizin inkişafına, məmləkətimizin dünyada tanınıb nüfuz qazanmasına həsr etmiş və buna uğurla nail olmuşdur. Keçmiş SSRİ-nin ucqar respublikalarından sayılan, ittifaq rəhbərliyinin ikinci dərəcəli münasibətlərindən daim əziyyət çəkən Azərbaycanı ittifaqın ən qabaqcıl respublikasına çevirmək Heydər Əliyevdən böyük bacarıq, tükənməz enerji, siyasi səriştə, mahir diplomatiya tələb edirdi. Xalqımızın dahi oğlu, müdrik rəhbəri və böyük dövlət xadimi Heydər Əliyev bu vəzifənin öhdəsindən məharətlə gələrək, Azərbaycanın gələcək müstəqilliyi üçün zəmin yaratmışdır.

Böyük alman filosofu Mendelsonun dahilər haqqında dediyi:«Dahi o kəsdir ki, adi insanların uzun müddət ərzində əldə edə bilmədiklərinə qısa bir zamanda nail ola bilir».

60-cı illərin sonuna doğru respublikada dərin və uzunmüddətli böhran elə bir səviyyəyə gəlib çatmışdır ki, xalqın sosial-iqtisadi vəziyyəti köklü islahatların keçirilməsini tələb edirdi. Azərbaycan, sənaye və kənd təsərrüfatında inkişafın sürətinə, elmi-texniki nailiyyətlərin tətbiqinin səviyyəsinə, əmək məhsuldarlığının artımına görə ittifaqın ən aşağı göstəricilərinə malik idi. Respublikanın bölgələrində yaşayış səviyyəsinin aşağı olması ilə yanaşı, istehsal sahələrinin yerləşdirilməsində də ciddi səhvlərə yol verilirdi. Bakı və Sumqayıt şəhərində sürətlə tikilən iri sənaye obyekt və müəssisələrə baxmayaraq, yaşayış evlərinin və sosial obyektlərin az istifadəyə verilməsi ciddi problemlər doğururdu. Respublikaya həmin dövrdə rəhbərlik edənlər əmək ehtiyatlarından səmərəli istifadə olunması, istehsal qüvvələrinin yerləşdirilməsi, digər şəhərlərin və kənd rayonlarının inkişaf etdirilməsi məsələlərini həll etmək iqtidarında olmadıqlarından yaranmış böhran da dərinləşirdi.

1969-cu ilin 14 iyulunda gənc, tükənməz enerjiyə, işgüzarlıq keyfiyyətlərinə malik Heydər Əliyevin respublika rəhbərliyinə irəli sürülməsi ilə bir çox problemlərin həll olunması, Azərbaycanın dirçəlişi və tərəqqisi üçün imkanlar yarandı. Xalqımızın özünüdərk, milli özünəqayıdış prosesinə qədəm qoyması da məhz Heydər Əliyev respublikaya rəhbər təyin olunması ilə başlanmışdır.

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən istiqamət götürən əsas strateji xətt ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi olmuşdur. Heydər Əliyev iqtisadiyyatın, təhsilin, elmin, mədəniyyətin tərəqqisinə respublikanın təbii ehtiyatlarından səmərəli istifadə etməklə nail olmağın mümkünlüyünü hələ o zamanlar dərindən dərk etmiş, özünün bütün bacarığını bu işə sərf etmişdir. Qısa müddətdə respublikanın inkişafının prioritetləri müəyyənləşdirilmiş, yeni istehsal sahələri təşkil edilmiş, ənənəvi təsərrüfat fəaliyyətləri bərpa olunmuş, iqtisadiyyatın səmərəliliyinin artırılması və modernləşdirilməsi prosesinə başlanmışdır.

Azərbaycanda 70-80-ci illərdə inşa edilən bütün sənaye müəssisələrinin ən yeni müasir texnologiyaya əsaslanması Heydər Əliyevin dövlətçilik və uzaqgörənlik bacarığından qaynaqlanır.

Azərbaycanda kənd təsərrüfatının müxtəlif sahələrini mütəxəssislərlə birgə təhlil edən Heydər Əliyev pambıqçılıq, üzümçülük, tərəvəzçilik, tütünçülük,balıqçılıq və bağçılığın inkişafı üçün böyük imkanların olduğunu aşkara çıxartdı.

Azərbaycanda kənd təsərrüfatının inkişafı üzrə prioritet sahələrin seçilməsində və eləcə də ekoloji tarazlığın qorunmasında Heydər Əliyevin qardaşları görkəmli alimlərimiz Həsən Əliyev və Cəlal Əliyev ona yardımçı olmuşlar.

Heydər Əliyev aqrar-sənaye kompleksinin yaradılması və inkişafı üçün sahələr üzrə elmi-tədqiqat institutları, şirə və şərab zavodları, trikotaj və tikiş məmulatlarını istehsal edən nəhəng fabriklərin tikilməsi kimi mühüm işlərə başladı. O dövrdə respublikanın müxtəlif rayon və şəhərlərində tikilən və ya tamamilə yenidən qurulan obyektlərdən bəzilərini sadalamaq kifayətdir: Şəmkir, Göyçay, Ağdam, Bakı şərab və konyak zavodları, Ucar, Balakən, Xaçmaz, Zaqatala şirə və konserv istehsalı müəssisələri, Bakı tütün fabriki, Sumqayıtdakı Avropanın ən nəhəng sənaye obyektlərindən olan Üst Trikotaj Geyimləri fabriki və Yevlax Yun zavodu və onlarla digərləri o dövrün yadigarlarıdır. Kənd təsərrüfatını inkişaf etdirmək üçün Azərbaycanda problem olan su qıtlığını da aradan qaldırmaq lazım idi. Heydər Əliyev bunu gözəl anlayır və susuzluqdan cadar-cadar olmuş Azərbaycan torpaqlarına yeni həyat bəxş edən kanalların çəkilişi, süni göllərin və dəryaçaların yaradılması, çayların sellərinin müəyyən məcraya yönəldilməsi məqsədilə bəndlərin inşası, körpülərin salınması, şoran torpaqların yuyulması və təmizlənməsi üçün irimiqyaslı işlər görürdü. Azərbaycanın təkcə kənd təsərrüfatında deyil, digər sahələrdə də əldə etdiyi mühüm qələbələr məhz Heydər Əliyev zəkasının, bacarığının və təşkilatçılığının bəhrəsi idi. Bakı ilə yanaşı, Azərbaycanın digər şəhərlərində də sənayenin sürətli inkişafı məhz o illərə təsadüf edir.

Heydər Əliyev o zaman, əsasən xammal istehsal edən Azərbaycanı inkişaf etmiş sənaye və aqrar ölkəsi kimi tanıda bildi.

Qısa müddətdə mövcud neft emalı zavodlarının yenidən qurulması, təkmilləşdirilməsi, müasir qurğuların quraşdırılması nəticəsində Azərbaycan xam neft ixrac edən respublikadan xam neft idxal edib emal olunmuş müxtəlif neft məhsulları – avtobenzinlər, dizel yanacağı, yağlar və s., ixrac edən respublikaya çevrildi. Neft maşınqayırma zavodlarının yenidən qurulması və yeni istehsal sahələrinin təşkili sayəsində keçmiş SSRİ üzrə buraxılan neft-mədən avadanlıqlarının 70% -dən çoxunun Azərbaycanda buraxılmasına nail olundu.

İkinci Dünya müharibəsindən sonra sürgündən qayıdanların, keçmiş hərbi əsirlərin, kriminogen kontingentin məskunlaşdığı, müxtəlif millətlərin yaşadığı Sumqayıt kimi şəhərin simasını tamamilə dəyişdirərək orada texnikumlar, ali məktəb, elmi-tədqiqat institutları, çox saylı sənaye müəssisələri, neft kimya kompleksləri açmaqla əhalinin maddi və mədəni səviyyəsinin yüksəlməsinə, elmi potensialın artmasına rəvac verdi. Heydər Əliyevin o zamanki qayğısının nəticəsi olaraq Sumqayıtda formalaşan kadrlar sonradan respublika miqyasında bir çox mühüm vəzifələrə irəli sürüldülər. Heydər Əliyev 70-ci illərdən başlayaraq, Azərbaycanda qeyri-ənənəvi, tamamilə yeni tipli, dünya standartlarına cavab verən məhsullar istehsal edən sənaye sahələri yaratmağa başladı və qısa müddətdə onlarla belə müəssisələr (Bakı kondinsionerlər, Dərin özüllər, Azon və s.) tikilib işə buraxıldı.



Bunlar Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə onun rəhbərliyi və bilavasitə iştirakı ilə aparılmış quruculuq işlərinin kiçik bir hissəsidir.

Bütün ittifaq göstəricilərinə görə, respublikamız birincilər sırasına çıxdıqdan, Heydər Əliyevin şöhrəti Azərbaycanın hüdudlarını aşmışdır, artıq Sov.İKP-nin Siyasi Bürosunun tərkibinə seçilmişdi. Azərbaycan Respublikasının rəhbəri SSRİ-nin yüksək rütbəli bir neçə şəxsindən biri hesab olunurdu.

Heydər Əliyev daha böyük enerji ilə işləyir, əlində olan imkanlardan və böyük nüfuzdan doğma Vətəni - Azərbaycan naminə maksimum istifadə edirdi.

Azərbaycana şöhrət gətirən, onu sürətli inkişaf yolu ilə irəlilədən rəhbər bir çoxlarında qibtə doğurur, bəziləri onun işgüzarlığına heyranlıqla, bəziləri isə qısqanclıqla baxırdılar.

Həyatın elə bir sahəsi yox idi ki, Heydər Əliyevin diqqətindən kənarda qalmış olsun. Elm, incəsənət, mədəniyyət sürətlə inkişaf edir, hər yerdə nizam-intizam hökm sürürdü. O dövrün imkanları daxilində Heydər Əliyev Azərbaycanı tanıtmaq üçün hər şey edirdi. Heydər Əliyevin 70-80-cı illərdə təhsil və səhiyyə sahəsində gördüyü qlobal işlər xüsusilə əhəmiyyətlidir. «Eksperimental Cərrahiyyə İnstitutu» və onun nəzdindəki xəstəxana, Pulmanologiya və Vərəm Xəstəlikləri İnstitutu, Urologiya İnstitutu kimi iri səhiyyə ocaqları həmin illərdə fəaliyyətə başladı. Diaqnostika, Ailə və Sağlamlıq Mərkəzlərinin yaraşıqlı binalarının inşası Heydər Əliyevin adı ilə bağlıdır.

O, Tibb və Akademiya şəhərciklərinin salınması üçün hər cür qayğı göstərmişdir. Azərbaycan təhsili Heydər Əliyevin hakimiyyəti dövründə mühüm reformalar həyata keçirdi, yeni tədris ocaqları ilə zənginləşdi. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə böyük qayğısının nəticəsində Suvorov tipli hərbi məktəb Azərbaycanda açıldı və ona Cəmşid Naxçıvanskinin adı verildi. Bakıdakı Ali Hərbçilik və Aviyasiya məktəbləri də Heydər Əliyev uzaqgörənliyinin məhsuludur. Təhsilin respublikadakı inkişafı ilə kifayətlənməyən Heydər Əliyev SSRİ-nin ən qabaqcıl ali məktəblərinə azərbaycanlıların müsabiqədən kənar daxil olması üçün şərait yaratdı.

Həmin illər həm də milli-mənəvi dəyərlərimizə qayıdışla əlamətdardır. Azərbaycanın mütəfəkkir şairi Hüseyn Cavidin qəbrinin sürgün edildiyi Sibirdən doğma Naxçıvana köçürülməsi respublika rəhbərindən böyük cəsarət və mərdlik tələb edirdi. Nəsimi kimi dahi Azərbaycan şairinə, Nəriman Nərimanov, Cəfər Cabbarlı kimi ictimai xadim və sənətkarlarla, Mehdi Hüseynzadə kimi Sovet İttifaqı Qəhrəmanına və onlarla digərlərinə abidələr qoyulması, ev muzeylərinin açılması həmin illərin mədəni hadisələrindəndir. O illərdə SSRİ xalq artisti, rəssamı, yazıçısı, Sosialist Əməyi Qəhrəmanı kimi İttifaqın ən yüksək adlarına layiq görülənlərin sırasında azərbaycanlıların çoxluq təşkil etməsi təsadüfi deyildi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünün 14 ili xatirələrdə bu cür izlər buraxıb, yaddaşlara həkk olunub. Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü seçilməsi ilə əlaqə-

dar o canından artıq sevdiyi Azərbaycandan ayrılıb Moskvada yaşamalı olsa da, diqqət və qayğısını vətəndən əskik etmirdi. Bir azərbaycanlı olaraq Heydər Əliyevə super dövlətin rəhbərlərindən biri kimi fəaliyyət göstərmək nə qədər çətinlik yaratsa da, özünün müstəsna qabiliyyəti və fitri istedadı nəticəsində bu işin öhdəsindən məharətlə gəlirdi.

Nə yazıqlar ki, SSRİ rəhbərliyinə Qorbaçov kimi adam gəldi. Qorbaçov öz məkrli siyasətini həyata keçirmək üçün ilk növbədə güclü və bacarıqlı şəxsiyyətlərin əleyhinə kampaniyalara başladı. Uzun illər baş katiblərin köməkçisi işləmiş Fyodorov Burlatskinin ifadə etdiyi kimi Siyasi Büroda Heydər Əliyevdən nüfuzlu və səriştəli, yüksək erudisiyaya malik, diplomatik cəhətdən yetkin adam olmadığından Qorbaçov ona dərin kin və düşmənçilik bəsləyirdi. Məhz elə buna görə də Qorbaçov Heydər Əliyevi Siyasi Bürodan və ittifaq rəhbərliyindən uzaqlaşırdı.

Çəkdiyi böyük zəhmətin, ömrünü sərf etdiyi işlərin müqabilində üzləşdiyi ədalətsizliklər Heydər Əliyevi sarsıda bilmədi. Bakıya qayıdarkən əli ilə qurub-yaratdığı şəhərdə də nankorluqla üzləşdi, ona burada yaşamağa belə qadağa qoydular.

Bu dəfə o, 50 il əvvəl çıxdığı, lakin həmişə Ana yurdu kimi böyük məhəbbət bəslədiyi Naxçıvana—əzizlərinin yanına qayıtdı. Dünya şöhrətli oğlunu ağuşuna alan Naxçıvan əhalisi onu qədirləndirdi və 1990-cı ildə Azərbaycan Respublikasının Ali Sovetinə deputat irəli sürdü. Heydər Əliyev xalqın iradəsi ilə Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçildi. Qısa bir müddətdə blokada şəraitində olan Naxçıvanın bir çox problemlərini həll etdi, qonşu və qardaş Türkiyəni Azərbaycanla birləşdirən ümid körpüsünü inşa etdirdi.

İranın köməyi ilə Naxçıvanda enerji böhranını aradan qaldırdı, sərhədlər boyu torpaqların əkin üçün istifadəsinə nail oldu. Özü də hamı ilə birgə çətinliklər içində yaşadı, problemlərin çözülməsi üçün bütün qüvvələri səfərbər etdi. Heydər Əliyevin dahiliyi eləcə də ondadır ki, o harada, hansı şəraitdə yaşamasından asılı olmayaraq, fəaliyyətini bütün sahələrdə xalqının maraqlarına həsr edir, ədalətsizliklərdən geri çəkilmir.

O dövrdə Azərbaycanda gedən ictimai-siyasi proseslər müstəqilliyin verdiyi imkanlardan tam istifadə olunmasına mane olurdu. Ermənistan-Azərbaycan münaqişəsi dərinləşərək, müharibə vəziyyətinə çatdırılmış, Dağlıq Qarabağ faktiki olaraq itirilmişdir, daxili hərc-mərclik baş alıb gedirdi.

SSRİ-nin dağılması nəticəsində vahid iqtisadi məkanda fəaliyyət göstərən iqtisadiyyat iflic vəziyyətinə düşmüşdü. Bakıda hakimiy-yət uğrunda mübarizə kəskin qarşıdurma səviyyəsinə çatmışdır. Dövlət rəhbərləri hadisələrin qarşısını ala bilmirdi. Vəzirov, Mütəllibov kimi milli maraqları ifadə etmək qabiliyyətində olmayan rəhbərlərdən təngə gəlmiş xalq bu dəfə ümidini meydan hərəkatının liderlərinə bəsləyirdi.

Lakin AXC-Müsavat cütlüyünün hakimiyyəti nəinki mövcud problemlərin həllinə yönəldi, hətta siyasi-iqtisadi durumu bir qədər də kəskinləşdirdi.



Azərbaycanın çıxılmaz vəziyyətini görən bir sıra görkəmli ziyalılar ümid yeri kimi Naxçıvana, xilaskar harayi ilə Heydər Əliyevə müraciət etdilər. Bütün xalqın etimadını qazanmış bir şəxsiyyətin Azərbaycana rəhbərlik etməsinə böyük ehtiyac duyulurdu. Azərbaycanın sonrakı həyatında önəmli yol, rol oynayacaq Yeni Azərbaycan Partiyasının yaranması ideyası da həmin zərurətdən doğdu. 1992-ci ilin noyabrında çox çətin şəraitdə, blokada vəziyyətində olan Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və uzun təkidlərdən sonra həmin partiyanın sədri olmağa razılıq vermiş Heydər Əliyev bu missiyanı öz üzərinə götürdü.

Cəbhədəki uğursuzluqlar, iqtisadi durumun ağırlanması, hakimiyyətdə olanların vahid komanda yaratmaq əvəzinə bir-birilə didişməsi, vətəndaş qarşıdurması yaratmış, ziddiyyətlər daha da dərinləşdirilmişdi.

Məlum iyun hadisələri zamanı hadisələrə sirayət edə bilməyən prezident Əbülfəz Elçibəy və onun ətrafı Heydər Əliyevə müraciətlər edib onu köməyə çağırmaq məcburiyyətində qaldılar.

Bu elə bir vaxt idi ki, Azərbaycan dünya xəritəsindən bir dövlət kimi silinmək təhlükəsi ilə üzləşmiş, vətəndaş müharibəsi reallığa çevrilmiş, əhali hakimiyyətə münasibətdə itaətsizlik nümayiş etdirdi. Heydər Əliyevin Azərbaycana bu dəfəki gəlişi Böyük qayıdışdan xəbər verirdi. Bu təkcə xalqın sevimli oğlunun rəhbərliyi qayıdışı deyildi, ölkənin dirçəlişinə, vətəndaş həmrəyliyinə, xarici və daxili təhlükələrin sovuşmasına qayıdış idi.

Qısa bir zaman kəsiyində Heydər Əliyev bir çox çətin və ağrılı problemləri həll edərək, ölkədə sabitliyə nail oldu. Düşmənin ölkənin içərisinə doğru irəliləməsinin qarşısını almağa qadir milli ordunun formalaşdırılması prosesinə başladı. Ermənistanla müharibənin dayandırılmasına nail oldu. Ayrı-ayrı siyası qüvvələrə xidmət edən silahlı dəstələri tərksilah etmək ölkə başçısından böyük cəsarət və hünər tələb edirdi və Heydər Əliyev bu işin öhdəsindən bacarıqla gəldi. Əsas fəaliyyətini Azərbaycanın yerləşdiyi geosiyasi məkandan və təbii sərvətlərindən bəhrələnməklə ölkəni düşdüyü böhrandan xilas etmək üçün istifadəyə yönəltdi. Əsrin neft müqaviləsinin – imzalanması ölkənin beynəlxalq nüfuzunu yüksəltdi və təhlükəsizliyinə zəmin yaratdı.

Azərbaycanın beynəlxalq nüfuzu yüksəldikcə, o bir sıra dünya səviyyəli qurumların tam hüquqi üzvləri sırasında durmaq hüdudu qazandı.

Avropa və Amerikanın bir çox nəhəng firmalarında Azərbaycana maraq oyatmağa nail olan möhtərəm Heydər Əliyev cənabları təkcə bu qitələrlə kifayətlənməyib, ölkəmizin şöhrətini digər istiqamətlərə də yaymışdır. Yaponiya, İsrail, Pakistan, Səudiyyə Ərəbistanı kimi ölkələrlə respublikamız arasında mehriban dostluq münasibətləri yaratmışdır.

Avropanın ən iri bankları və Dünya Bankı Azərbaycanın ən etibarlı investorlarına çevrilmişlər. Qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması möhtərəm prezidentimizin gündəlik qayğılarındandır. SSRİ dağıldıqdan sonra səriştəsiz respublika rəhbərliyinin buraxdığı səhvlərin ucbatından tamamilə darmadağın edilmiş, hissə-hissə mənimsənilərək, dəzgahları satılmış, sahələri xa-

rabazara çevrilmiş zavod və fabriklərin yenidən işə düşməsi üçün yollar arayıb tapmış, dünya standartlarına cavab verən sənaye müəssisələri yaratmaq üçün bir sıra ölkələrlə danışıqlar aparılmışdır.

Görülən işlər nəticəsində 1995-ci ildən başlayaraq, ölkəmizdə geriləmənin qarşısı alınmış, bütün sahələrin inkişafına nail olunmuşdur.

Respublikada kənd təsərrüfatının mühüm sahələri olan taxılçılıq, pambıqçılıq, üzümçülüyün inkişaf etdirilmək məqsədilə mühüm tədbirlər həyata keçirilir. Dünya Bankının yardımı ilə respublikanın bir neçə rayonunda nümunəvi fermer təsərrüfatlarının yaradılması üçün külli miqdarda vəsait ayrılmışdır. Respublikanın rayonlarının qaz və elektrik təchizatı sahəsində mühüm irəliləyişlər əldə olunmuşdur. Vətənimizin paytaxtı Bakı Avropanın və dünyanın ən müasir şəhərləri ilə yarışa girə biləcək tərzdə abadlaşdırılmış, gözəlləşmişdir.

Mədəni həyatımızda bu illər ərzində o qədər mühüm hadisələr baş vermişdir ki, onları sadalamaq mümkün deyil. Sənət korifeyləri Füzuli, Uzeyir Hacıbəyov, Səməd Vurğun, Cəlil Məmmədquluzadənin beynəlxalq səviyyədə keçirilən yubileyləri, Hüseyn Cavidin Naxçıvanda açılan məqbərəsi və ev-muzeyi, bir çox incəsənət adamlarının, şairlərinin yaradıcılıq gecələri – prezidentimizin şəxsi qayğısı, himayəsi və iştirakı ilə həyata keçirilmişdir.

Xalqımızın dinc quruculuğunun təminatçısı olan, onun sərhədlərini qoruyan müzəffər ordumuzun yaranması da, möhtərəm prezidentimizin adı ilə bağlıdır. Prezident Heydər Əliyev beynəlxalq aləmdə çox böyük nüfuz qazanmış, BMT-nin Baş Assambleyasında, Beynəlxalq Sammitlərdə, İslam ölkələri konfranslarında, Türk Dövlət rəhbərlərinin toplantılarında Azərbaycan maraqlarının qarantı kimi çıxışlar etmiş, ölkəmizin çağdaş durumu barədə əsl həqiqətləri dünyaya yaymışdır.

Əsrə bərabər olan illər ərzində-tarixə Heydər Əliyev epoxası kimi daxil olan bir müddətdə – Azərbaycan xalqı böyük inkişaf yolu keçmiş, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə böyük uğurlar qazanmışdır. Bütün bunlar möhtərəm prezidentimiz Heydər Əliyevin gərgin əməyinin bəhrəsi, böyük təşkilatçılıq bacarığının təzahürüdür.

Prezident kimi fəaliyyətinin 10 ilinin yekunu olaraq inanıram ki, xalqımız 2003-cü ildə keçiriləcək seçkilərdə yenidən Heydər Əliyevə səs verəcək, özünün ona olan etimad və məhəbbətini bir daha nümayiş etdirəcəkdir.

Dünya şöhrətli dövlət rəhbərinə, siyasət aləminin mahir bilicisinə, xalqımızın müdrik oğluna, böyük vətənpərvərinə uzun ömür, cansağlığı arzulayırıq, inanırıq ki, tariximizin Heydər Əliyev dövrü hələ çox illər onun özü və ardıcılları tərəfindən davam etdiriləcəkdir. Dövlətimizin ərazi bütövlüyü tezliklə təmin olunacaq. Müstəqil Azərbaycanımız gündən - günə, ildən - ilə daha da güclənəcək, dünyanın qüdrətli, demokratik dövlətlərindən birinə çevriləcəkdir.